HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 YANVAR 2019-CU İL/ №001 (81)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



HOMO HOMİNİ LUPUS EST

3



BAZAR MƏDƏNİYYƏTİ, YOXSA MƏDƏNİYYƏT BAZARI?

4



ORTA ƏSRLƏRDƏ GÜRCÜSTANDA YAŞAMIŞ MÜSƏLMAN-TÜRK ALİMLƏR

7




QRİPƏ YOLUXMAMAQ ÜÇÜN NƏ ETMƏLİ?

## PREZİDENT SALOME ZURABİŞVİLİ ƏMƏKHAQQINDAN İMTİNA EDİB



Gürcüstan prezidenti Salome Zurabişvili əməkhaqqından imtina edib. Bu barədə dövlət başçısı keçirdiyi mətbuat konfransında bildirib.

Salome Zurabişvili Fransadan təqaüd aldığını və maaşını xüsusi fonda köçürəcəyini bildirib.

"Prezident Fondu ləğv olunduğuna görə xeyriyyəçiliyə dəstək verilməlidir. Prezident bu cür təşəbbüslərin bir növ himayəçisi olmalıdır. Buna görə də qərara aldım ki, mənim himayəm altında və ictimai şəxslərin köməyi ilə fond yaradılsın. İlk növbədə, mən əməkhaqqımı həmin fonda köçürəcəyəm. Ümid edirəm ki, məndən sonra digərləri də bu addımı atacaqlar", - deyə Gürcüstan prezidenti deyib.

## "DONUZ QRİPİNƏ" QARŞI DƏRMAN XƏSTƏLƏRƏ PULSUZ VERİLƏCƏK




Gürcüstanın baş naziri Mamuka Baxtadze və hökumətin təşəbbüsü ilə "donuz qripi" A (H1N1) virusuna qarşı "Tamiflu" dərman preparatı əhaliyə pulsuz veriləcək.

Təşəbbüsə əsasən, dərman vasitəsi yanvarın 12-dən etibarən yalnız risk qrupuna daxil olan vətəndaşlara deyil, bütün vətəndaşlara ödənişsiz təqdim olunacaq.

Gürcüstanın ictimai sağlamlıq mərkəzləri ilə yanaşı, 24 saat işləyən poliklinikalar da dərmanın paylanılmasında iştirak edəcəklər. Həkimlər yalnız pasiyentin diaqnozu təsdiq olunandan sonra dərmanı vermək hüququna malik olacaqlar.

Bundan başqa, apteklərin satış üçün əldə etdiyi "Tamiflu" dərman preparatlarının ehtiyatlarını Gürcüstanın Məcburi Köçkünlərin İşləri, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyi satış qiymətinə alacaq.

Bu vaxta qədər "Tamiflu" dərman vasitəsi ödənişsiz olaraq həkim resepti əsasında yalnız risk qrupunda olan sosial təminatsız, təqaüdçülər, hamilə qadınlar, xroniki xəstəlikləri olan şəxslərə verilirdi.

Gürcüstanın məcburi köçkünlərin işləri, əmək, səhiyyə və sosial müdafiə naziri David Sergeenko yanvarın 11-də keçirdiyi mətbuat konfransında bildirdiyinə əsasən isə, qrip virusuna yoluxmuş şəxslərin xəstəxanalarda müalicəsi də pulsuz olacaq. Dövlət onların bütün müalicə xərclərini öz üzərinə götürür.

## QRİPƏ GÖRƏ UŞAQ BAĞÇALARI VƏ MƏKTƏBLƏRDƏ QIŞ TƏTİLİNİN VAXTI UZADILIB

Gürcüstanın ümumtəhsil məktəblərində qış tətilinin müddəti yanvarın 18-dək uzadılıb. Bu barədə Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi qərar qəbul edib.

Nazirlikdən bildirilib ki, qrip virusu ilə bağlı epidemiya olmasa da, tətilin müddətinin uzadılması qərarı şagird və müəllimlərin sağlamlığının qorunması məqsədilə verilib.

Qurum məktəblərdə tətil müddətində dezinfeksiya işlərinin aparılması ilə bağlı tövsiyələr də verib.

Bundan başqa, Tbilisdəki uşaq bağçalarında da qış tətilinin müddəti yanvarın 18-dək uzadılıb. Bu barədə Tbilisi Uşaq Bağçalarının İdarəolunması Agentliyi məlumat yayıb.

Qeyd edək ki, Gürcüstanda "donuz qripi" adlandırılan A (H1N1) virusundan 15 nəfər dünyasını dəyişib.

Xatırladaq ki, məktəblərdə qış tətilinin müddəti yanvarın 14-dək davam etməli idi.

## QIZILCA VİRUSU YAYILMAĞA BAŞLAYIB



Gürcüstanda daha bir yoluxucu xəstəlik – qızılca virusu yayılmağa başlayıb. Yanvarın ilk 10 günündə qızılca diaqnozu ilə 60 nəfər xəstəxanaya yerləşdirilib. Qızılcaya yoluxmuş xəstələr əsasən 20-40 yaş arasında olanlardır.

Tbilisinin İnfeksion Xəstəliklər Xəstəxanasının direktoru Miriana Ezuqbaya bildirib ki, hazırda Tbilisidə qızılcaya yoluxma halları artıb.

"Xəstəxana yalnız qızılca ilə yoluxmuş xəstələri qəbul edir. Qrip virusuna yoluxmuş xəstələr isə başqa şöbələrə yönləndirilir", - deyə direktor vurğulayıb.

Dünya Səhiyyə Təşkilatının məlumatına görə, keçən ilin altı ayı ərzində Gürcüstanda mindən çox qızılca xəstəliyi qeydə alınıb. Bu göstərici ilə Gürcüstan Avropa ölkələri sırasında Serbiya və Ukraynadan sonra üçüncü yerdə dayanıb.



# HOMO HOMİNİ LUPUS EST

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

*2019-cu ilin ilk buraxılışı ilə sizlərlə yenidən görüşməyə şadıq, əziz oxucu. Donuz ili ölkəmizə "donuz qripi" ilə qədəm qoysa da ümidvaram ki, ilimiz bununla yadda qalmayacaq və baxmayaraq ki, qışımız yaz əhval-ruhiyyəsindədir irəlidə ümid dolu əsl yaz var. Tanrı hamımızı yaza sağ və sağlam çatdırsın, "donuz qripinə" yoluxanlara da tezliklə şəfa versin. Amin.*

Ümumiyyətlə, xəstəliklər, epidemiyalar, təbii fəlakətlər, müharibələr insanları dərilərindən çıxarıb xislətini çılpaq şəkildə göstərir. "İnsanları" əvəzinə "sistemi" də yaza bilərdim, amma sistemi, sistemləri yaradan və idarə edən də məhz insanlar deyilmi.

Hər fürsətdə öz xeyrini güdənlər üçün epidemiya da gözəl bir fürsətdi, qazanc mənbəyidi; bayramlar əsl alver, qiymətlərin vicdanlardan yuxarı qalxması günüdür; təbii fəlakətlər və müharibələr də həmçinin. Latın dilində belə bir ifadə var: homo homini lupus est, yəni insan insana canavardır. İnsan fürsət güdəndir, gözləyir ki, biri yıxılsın, tez onun yerini zəbt etsin; biri xəstələnsin, dərmanını ona baha satsın və çeşid çeşid bu kimi əclaflıqlar, şərəfsizliklər, əxlaqsızlıqlar və daha nələr, nələr...

Hey fikirləşirdim ki, nəyə görə Çin təqvimi deyilən təqvimdə heyvanlar yer alıb, ən murdar, pis xislət heyvan olan donuzun belə ili olduğu halda insana yer verilməyib. Nəyə görə insan ili olmur? Bəlkə də yuxarıda sadaladığım xüsusiyyəltərə görə insan heyvanların arasında yer almağa layiq deyil. Dərisinin rənginə görə, fərqli dildə danışdığına görə, inancına, milli mənsubiyyətinə görə, siyasi baxışlarına görə bir-birini seçən, bir-birini "yeyən", ən pis cinayətlər törədən, paxıllıq, kin, nifrət, hərislik, xudbinlik və s. kimi heyvanlarda olmayan xüsusiyyətlərə malik olan insan heyvanlarla bir sırada təqvimdə yer ala da bilməz. Tanrı insana şüur verməklə onu bütün yaradılışın şərəflisi etdi. Təəssüf ki, şüurdan başqa məqsədlər üçün istifadə etdi insan – hiylələr qurdu, cinayətlər fikirləşdi, bir-birini məhv etmək üçün, bir-birinin sahib olduğunu mənimsəmək üçün müxtəlif üsullara əl atdı, böhtan atdı, tələlər qurdu, yalanlar uydurdu, rüşvəti fikirləşdi və sair, və ilaxır.

Siz heç gördünüzmü ki, hansısa heyvan, məsələn, söhbət donuzdan düşmüşkən, bir donuz bala dünyaya gətirdiyi üçün başqa donuza şirinlik versin, rüşvət versin? Bu mümkün deyil. İnsansa evladı olduğu üçün niyəsə həkimlərə şirinlik, rüşvət verməlidir. Üstəgəl uşaq oğlandırsa şirinlik də ağır olmalıdır. Və ya uşağını müayinə edən pediatra şirinlik verməlidir ki, uşağa yaxşı baxsın. Axı bunların hamısı pulsuzdur. Dövlət bunun üçün həkimlərə hər ay maaş verir. Əlbəttə, burada şirinliyi alan da, verən də günahkardır. Niyəsə hər şeyə "ucuz ətin ucuz şorbası olar" prizmasından yanaşırıq, yəni həkimə pul verməsəm uşağıma pis baxacaq. Sən vermə, pis baxarsa Səhiyyə Nazirliyinə şikayətini elə. Qoy Hippokrat andı onlara qənim olsun.

Əslində "şirin yeyənləri" şirinliyə öyrədən, alışdıran da elə insanlarımız özləridir. Mənim bir gürcü tanışım var, o, bu mövzudan söhbət düşəndə həmişə deyir ki, niyə siz azərbaycanlılar həkimləri pis öyrədirsiz, niyə uşağınız olanda həkimlərə pul verirsiz, əksinə onlar sizə pul verməlidirlər ki, onların çalışdığı doğum evini seçmisiniz və buna görə dövlət onlara pul ödəyir. Mən o yazığa başa sala bilmirəm ki, biz sevindiyimizdən pul paylayırıq, o boyda uşağın olur axı, indi durub pul söhbətimi edəcəksən, eldən ayıbdır, camaat nə deyər? Bir də ki, pul verəndə uşağa yaxşı baxırlar. O isə yenə öz dediyində inadlıq edir ki, uşağımız olanda biz sevinmirik bəyəm, bizim uşağımıza pis baxırlar bəyəm, əksinə bizdə pul verənə hərif kimi baxırlar və bu, camaat arasında ayıb sayılır. Belə...

*Latın dilində belə ifadə də var: lupus pilum mutat, non mentem, yəni canavar kürkünü dəyişər, xasiyyətini yox.*

## KREDİT VERMƏ QAYDALARI ÇƏTİNLƏŞİB

2019-cu il yanvarın 1-dən Gürcüstan Milli Bankının sərəncamı qüvvəyə minib. Sərəncama əsasən, kredit verən bütün təşkilatlara kredit götürənin ödəmə imkanını qiymətləndirmək və fiziki şəxslərə real olaraq ödəyə biləcəkləri məbləğdən artıq kredit, şahidlik etmək imkanı verməmək öhdəliyi qoyulur. İstisna hallar da nəzərə alınıb. Məsələn, lombard kreditləri zamanı gəlirlərin qiymətləndirilməsi vacib deyil və fiziki şəxsin öhdəliyi yalnız girov qoyulan əşyadan ibarətdir.




İpoteka kreditinin müddəti 15 il, nəqliyyat krediti 6 il, daşınmaz əmlakla təmin edilən kredit 10 il, digər hər hansı növ kreditin maksimum müddəti isə 4 il müəyyən edilib.

Milli Bankın normativ sənədinə əsasən, 1000 və ya daha az aylıq gəlir olan halda gəliri lari ilə olan və krediti də lari ilə götürən şəxslərə kredit xidmətinin maksimum nisbəti 35% olmalıdır, yəni bu o deməkdir ki, əgər sizin aylıq gəliriniz 1000 laridirsə, hər ay ödəməli olduğunuz məbləğ 350 laridən artıq olmamalıdır.

Kredit xidmətinin maksimum nisbəti 1000-dən 2000 lari gəlirə 45% olmalıdır; 2000-4000 lari gəlir olan halda – 55%; 4000 və daha artıq olan halda maksimum nisbət 60% müəyyən edilib.

Gəliri milli valyuta olan, krediti isə xarici valyula ilə götürənlər üçün isə kreditin maksimum nisbəti müqayisədə aşağıdır. Sənədə əsasən, 1000 lari və ya daha az gəlir olan halda kreditin maksimum nisbəti 25%, 1000-4000 lari olan halda 30%, 4000 lari və ya daha çox olan halda 35% müəyyən olunub.

Gəliri lari ilə olan, krediti xarici valyuta ilə götürən şəxslər üçün müəyyən edilmiş qaydalar, həmçinin gəliri xarici valyuta ilə olan, krediti lari ilə götürənlərə də aiddir.

"Tənzimləmə Milli Bankın nəzarətinə tabe olan bütün kredit verən təşkilatlara aiddir. Kredit verən kredit götürənin gəlirini qiymətləndirmək, girovun dəyərini müəyyən etmək və bundan sonra kredit vermək məcburiyyətində olacaq. Aylıq ödənən məbləğ və girovun dəyəri bu sərəncamla müəyyən edilmiş həddən artıq olmayacaq.

Qeyd olunan nisbətlər yerli və xarici valyutada olan kreditlər üçün fərqli olacaq. Bu, kredit götürənin və maliyyə sisteminin xarici valyutanın kursunun dəyişməsi səbəbindən yaranan risklərdən qorunması məqsədini daşıyır", - deyə Milli Bankdan bildiriblər.

Milli Bank tərəfindən qəbul edilən qaydaya əsasən, kreditin verilməsi zamanı hər hansı kredit təşkilatı sizin haqqınızda sonrakı məlumatı yoxlamalıdır: Şəxsin gəlirinin, xərclərinin və ümumi öhdəliklərinin təfərrüatlı analizi və kreditə olan ehtiyacın yoxlanılması; Verilən məlumatın düzgünlüyünün yoxlanılması; Büroda kredit tarixçəsinin yoxlanılması; Öhdəliklər xidmətinə mənfi təsir göstərəcək əlavə faktorların nəzərə alınması; Əldə olunan məlumata əsaslanaraq kredit götürən tərəfindən vacib maddi çətinliklərdən kənar kredit xidməti imkanlarının müəyyən edilməsi.

Qayda istehsal məqsədi ilə, həmçinin kənd təsərrüfatına istiqamətlənmiş kreditlərə aid deyil.

## TEXNİKİ BAXIŞDAN KEÇMƏYƏN AVTOMOBİLLƏRİ "AĞILLI" KAMERALAR CƏRİMƏLƏYƏCƏK

Gürcüstanın Daxili İşlər Nazirliyinin (DİN) məlumatına görə, "ağıllı" kameraların vasitəsilə yanvarın 14-dən texniki baxışdan keçməyən avtomobillər avtomotik rejimdə cərimələnəcək.

Gürcüstan miqyasında artıq 1441 video kamera montaj edilib. Kameralar keyfiyyətli şəkildə çalışır və nazirliyin vahid şəbəkəsinə qoşulub. Onlardan 795-i ümumi baxış, 646-sı isə ağıllı kameralardır.



"Ağıllı" kameralar tərəfindən video cərimənin yazılması haqqında mesaj nəqliyyat vasitəsinin sahibinin telefon nömrəsinə göndəriləcək. Mesajı aldıqdan 10 gün ərzində cəriməni ödədiyi halda vətəndaş 20%-lik güzəştdən istifadə edəcək. 10 gün ərzində cərimə ödənməzsə cərimə qəbzi qeydiyyat ünvanına əsasən ona poçt vasitəsilə göndəriləcək. Video cərimənin qeydiyyat ünvanına əsasən çatdırılmaması halında isə 30 və 60 gün ərzində video cərimə təkrar göndərilir.

Cərimə qəbzinin poçt vasitəsilə iki dəfə çatdırılmaması halında DİN cərimə qəbzinin ictimai şəkildə www.police.ge saytında yayımlanmasını təmin edir.

DİN-dən bildiriblər ki, sürəti ölçən radarların və "ağıllı" kameraların yerləşdirilməsi davam edir.

## TBİLİSİ-ANKARA İSTİQAMƏTİNDƏ BİRBAŞA HAVA REYSLƏRİ HƏYATA KEÇİRİLƏCƏK

2019-cu ilin 18 yanvar tarixindən Türk Hava Yolları Ankara-Tbilisi istiqamətində birbaşa hava reyslərinə başlayacaq.




Gürcüstan və Türkiyənin paytaxtı arasında uçuşlar həftədə iki dəfə – hər bazar ertəsi və cümə günləri Boeing 737 – 800 tipli təyyarələrlə Ankaranın Esenboğa hava limanına həyata keçiriləcək.

Hazırda Türk Hava Yolları gündəlik uçuşları Tbilisi Beynəlxalq Aeroportundan Atatürk və Sabiha Gökçen aeroportları istiqamətində həyata keçirir.

## R.T.ƏRDOĞAN: TÜRKİYƏ MÜDAFİƏ SƏNAYESİ SAHƏSİNDƏ XARİCDƏN ASILILIĞI AZALDIR




Türkiyə Cümhuriyyəti müdafiə sənayesi sahəsində xarici ölkələrdən asılılığını sürətlə azaltmaqdadır. Prezident Rəcəb Tayyib Ərdoğan Sakariya şəhərində çıxışı zamanı bu barədə geniş məlumat verib.

Prezident diqqətə çatdırıb ki, AKP hakimiyyətə gələn dövrlərdə Türkiyə müdafiə sənayesi məhsulları ilə daxili tələbatın 20 faizini təmin edirdi. Hazırda bu göstərici 68 faizə yüksəlib. Dövlət başçısı qeyd edib ki, bu sahədə daha ciddi tədbirlər görülməkdədir.

Qeyd edək ki, Türkiyə istehsal etdiyi "ATAK" helikopterlərini Pakistana, pilotsuz uçuş aparatlarını isə Ukraynaya satmaq üçün alıcı tərəflərlə müqavilə imzalayıb.

## ABŞ-IN DÖVLƏT KATİBİ: "TÜRKİYƏNİ DƏSTƏKLƏYİRİK"



"Türkiyənin terrorçulara qarşı mübarizəsini anlayır və dəstəkləyirik". Bunu ABŞ-ın dövlət katibi Maykl Pompeo jurnalistin prezident Rəcəb Tayyib Ərdoğanın terrorçu PKK/YPG-PYD qruplaşmasının Türkiyə üçün bir təhlükə mənbəyi olaraq tanınması fikri ilə bağlı sualına cavabında deyib.

"ABŞ prezidenti Donald Trampın Suriyadan hərbçilərimizi çıxarmaq məsələsində heç bir dəyişiklik yoxdur. Həm İŞİD-ə qarşı mübarizə aparacağıq, həm də Suriyadan uyğun bir halda çıxacağıq", - M.Pompeo bildirib.

O, jurnalistin "Türkiyə və "kürdlərlə" (terrorçu PKK/YPG-PYD qruplaşmasını nəzərdə tutur - red.) əlaqələri necə quracaqsınız" sualına cavabında bildirib: "Hər iki tərəflə görüşmüşük. Hərbçilərimizin təhlükəsiz çıxması ilə bağlı görüşlər keçiririk. Çıxmazdan əvvəl Suriyanın İŞİD-ə aid bütün ünsürlərdən təmizləndiyinə tam əmin olmaq istəyirik. Ərdoğan terrorçuların (PKK/YPG-PYD-ni nəzərdə tutur - red.) onların həyatı üçün bir təhdid mənbəyi olduğunu bildirib. Biz də terrorçuların Türkiyəni təhdid etdiyinin fərqindəyik və bu məsələdə Türkiyəni dəstəkləyirik. İfratçılar və terrorçular harada olur-olsun, onlara qarşı mübarizə aparan qüvvələri dəstəkləməyə hazırıq. Buna Türkiyə kimi başqa ölkələr də daxildir".

Xatırladaq ki, yanvarın 9-da Maykl Pompeo İraqa elan olunmamış səfər edib.

Qeyd edək ki, ötən il Donald Trampla Rəcəb Tayyib Ərdoğan arasında olan telefon danışığından sonra ABŞ prezidenti ölkə hərbçilərinin Suriyadan çıxması barədə sənədi imzalayıb.

Yanvarın 9-da isə ABŞ prezidentinin milli məsələlər üzrə müşaviri Con Bolton Türkiyədə səfərdə olub.

## TÜRKİYƏ SƏFİRİNİN DİNİ MƏSƏLƏLƏR ÜZRƏ YENİ MÜŞAVİRİ QARDABANİDƏ OLUB



Türkiyə Cümhuriyyətinin Gürcüstandakı səfirinin yeni təyin olunmuş dini məsələlər üzrə müşaviri Ahmet Erdem dekabrın 10-u Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatının (GYMD) Qardabanidəki ofisində qonaq olub.

Ahmet Erdem GYMD-nin sədri Musa Hacıyev və idarə heyəti ilə görüşüb. Görüş zamanı qonaq təşkilatın fəaliyyətləri ilə yaxından tanış olub.

GYMD-nin sədri Musa Hacıyev yeni müşavirə fəaliyyətində müvəffəqiyyətlər diləyib.

## GÜRCÜSTAN AZƏRBAYCANLILARI KONQRESİNİN SƏDRİ PREZİDENTƏ MÜRACİƏT EDİB



Gürcüstan Azərbaycanlıları Konqresinin (GAK) sədri Hüseyn Yusubov prezident Salome Zurabişviliyə azərbaycanlı gənclərin işsizlik problemi ilə bağlı müraciət edib.

Müraciətdə Gürcüstanın ali məktəblərini uğurla bitirən 3 mindən çox azərbaycanlı gəncin 90 faizdən çoxunun işsiz olduğu bildirilib.

GAK sədri qeyd edib ki, Gürcüstanda sayca ikinci millət olan azərbaycanlılar dövlət qurumlarında layiqincə təmsil olunmurlar və bu, ədalətsizlikdir.

"Dmanisi və Bolnisi rayonlarında yaşayan əhalinin 70 faizə yaxını azərbaycanlılar olsa da, onlar yalnız yerli bələdiyyələrdə minimum şəkildə təmsil olunurlar. Kaxeti bölgəsində 50 mindən artıq azərbaycanlının yaşamasına baxmayaraq, onlar da ali dövlət qurumlarında deyil, yalnız kəndlərin yerli idarəetmə orqanlarında çalışırlar. Şida Kartli bölgəsi, Tbilisi və Rustavi şəhərlərində də azərbaycanlıların dövlət qurumlarında təmsilçiliyi məsələsi daha ağrılıdır", - deyə müraciətdə vurğulanıb.

H.Yusubov müraciətinin sonunda S.Zurabişvilidən GAK-ın üzvü olan gənc ziyalı azərbaycanlıların Prezident Administrasiyasında təmsil olunmasına şəraitin yaradılmasını xahiş edib. O qeyd edib ki, bir-iki nəfər azərbaycanlı gəncin dövlət başçısının aparatında təmsil olunması Gürcüstanda yaşayan azərbaycanlıların işsizlik problemini həll etməsə də, onların vətəndaş cəmiyyətinə inteqrasiyasına stimul verə bilər.

## BAZAR MƏDƏNİYYƏTİ, YOXSA MƏDƏNİYYƏT BAZARI?



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

*Əziz oxucu, bu yaxında yaxşısı ilə, pisi ilə, sevinci ilə, kədəri ilə bir təqvim ilini yola salıb yeni bir ilə qədəm basdıq. Bu il sonunda gördüklərim və eşitdiklərim məni bu yazını yazmağa vadar etdi.*

Bu ərəfədə bayram sahibi olan xristianlardan daha aktiv olan xalqımızın nə cür bir ticarət anlayışına sahib olduqlarını göstərdilər. Xeyr, səhv düşünməyin, mən xalqımızı təhqir etməyə çalışmıram. Sadəcə etdiklərinin ticarət qaydalarına və ticarət mədəniyyətinə tərs düşdüyünü anlatmağa çalışıram. Gördüklərimin və ya eşitdiklərimin bu qədər əhəmiyyətli nə olduğunu eşidən kimiyəm. Deyim: satmağa gətirdiyi meyvənimi, tərəvəzimi, əşyanımı, qısacası dədə-baba dili ilə desək, gətirdiyi malı satmağa çalışanların yeddi nəsil keçmişini qəbirdən çıxarıb and içdiyinimi, diri olan oğlunu-qızını qəbrə qoyanımı sayım, bilmirəm?

Yuxarıda da ticarət mədəniyyəti dedik. Bəli, ticarət bir mədəniyyətdir. Həm də insanın kimliyini ortaya qoyan bir mədəniyyət. Peyğəmbər əfəndimiz "ruzinin onda doqquzu ticarətdədir" buyurur. Bu baxımdan ticarət önəmlidir. Ancaq dürüst olacaqsansa bu ticarətdə qazanan olacaqsan. Əks təqdirdə bu dünyada sadəcə mənfəət əldə edərsən, başqa heç nə.

Peyğəmbər əfəndimiz hələ uşaqkən əmisi ilə Şama ticarətə getmişdir. Daha sonralar özü də tacirlik etmiş, məhz xanımı həzrəti Xədicə ilə də bu vəsilə ilə tanış olmuşdur.

Bir gün Rəsulullah (sallallahu əleyhi və səlləm) buğda satan bir adama rast gəlir. Satıcıya:

"Necə satırsan?" deyə soruşur.

Adam da izah edir. O əsnada Rəsulullaha (sallallahu əleyhi və səlləmə) "Əlini onun (buğdanın) içinə sal!" deyə vəhy (işarə) edilir.

Allah Rəsulu da (sallallahu əleyhi və səlləmə) əlini salır və buğdanın yaş olduğunu görür. Bunun üzərinə, "İnsanların görməsi üçün yaş olanı üst tərəfinə qoysaydın! Aldadan bizdən deyil", deyə buyurur (Müslim, İman, 164).

İslamın ən geniş yayıldığı və müsəlmanların dünyaya rifah gətirdikləri dövrlərdən biri olan Osmanlı zamanında padşahlar qiyafə dəyişdirərək bazarları gəzib tacirlərin ticarətlərini xüsusilə nəzərdən keçirərmişlər. İndoneziya kimi bir dövlətin islamlaşması da məhz bir tacirin dürüstlüyü ilə olmuşdur.

Bəli, əziz oxucu, bu gün biz ticarətimizdə mədəniyyətimizi göstərmirik, məhz satdığımız mallarla birlikdə mədəniyyətimizi də satmış oluruq.

Əgər ticarətimizdə doğru və hallalıq prinsiplərini qoruyaraq hərəkət etsək, bu qədər çalışıb çabalayırıq, niyə qazancımız az olur sözləri yerinə, çox şükür, Allah bazarımıza bərəkət verdi, qazancımız bol oldu deyərik.

Yuxarıda göstərdiyimiz misallardan da göründüyü kimi xarab məhsulu altına gizlətməyə çalışılmamalı, əksinə müştərinin görə biləcəyi bir şəkildə sərgilənməlidir.

Pul qazanılacaq deyə mala dəyərindən qat-qat yüksək qiymət qoyaraq satmaq, camaata yalan danışmaq və ya camaatın varını-yoxunu əlindən almaq insafsızlıq, ədalətsizlik və imansızlıqdır.

*Odur ki, bazar mədəniyyətini mədəniyyət bazarına çevirməyək.*

# ORTA ƏSRLƏRDƏ GÜRCÜSTANDA YAŞAMIŞ MÜSƏLMAN-TÜRK ALİMLƏR



Üzərində yurd saldığımız bu qədim diyarlar sadəcə türk-İslam aləminə deyil, ümumi dünya mədəniyyətinə böyük töfhələr vermişdir. Bu torpaqlar saysız dövlət xadimləri və böyük alimlər yetişdirmişdir. Aşağıda orta əsrlərdə bu torpaqlarda doğulmuş və bu torpaqlarda yetişmiş dünya mədəniyyətinə və elm sahəsinə böyük töhfələr verən önəmli alimlərimiz haqqında qısa bir məlumatı siz oxucuların diqqətinə çatdırırıq.

IX əsrin əvvəllərində yaşamış, "Zəfərani" təxəllüsü ilə məşhur olan Əbu İmran ət-Tiflisi yəhudi ilahiyyatçılar arasında böyük şöhrət qazanmış və daha çox musəvi türklər arasında (xəzərlər) yayılmış olan karaimlər təriqətinin qurucularından biri olmuşdur. Alman tədqiqatçı alim Fleyşer Əbu İmran ət-Tiflisinin bu gün azərbaycanlıların kompakt yaşadığı Kvemo Kartli (Borçalı) bölgəsindən olduğunu söyləyir.

IX əsrin sonları, X əsrin ortalarında yaşamış Əbu Səhl Əbdülmümin ibn Əli ibn Nuh ət-Tiflisi sadəcə Yaxın Şərqdə deyil, Orta Asiyada da fəaliyyət göstərmişdir. Ensiklopedik bilgilərə sahib olan bu alim dünya təbabət elminin məşhur isimlərindən biri olan Əbu Əli ibn Sinanın müəllimi olmuşdur. Eyni zamanda astronomiya elminin dünyaca məşhur alimlərindən olan Biruniyə elmi araşdırmalarında çox böyük məsləhətlər vermişdir. Mənbələrin verdiyi məlumata görə, Əbu Səhl Əbdülmümin ibn Sina ilə birlikdə təqiblərdən qurtulmaq məqsədiylə Xarəzmdən Həmadana qaçarkən yolda vəfat etmişdir.

X əsrdə Tiflis mədəni mühitinin ortaya çıxardığı ən önəmli alimlərdən biri də filosof və həkim "Tibb" adlı əsərin müəllifi İsa ər-Riqqi Tiflisi olmuşdur.

XI əsrdə yaşamış Şeyx Əbdülqasim ət-Tiflisi dövrünün hədisçiləri arasında ən tanınmış alimlərdən biri idi. O, dünyaca məşhur İslam alimi Əbdülhüseyn Əli ibn Əhməd əl-Haşiminin müəllimi olmuşdur.

Mənbələr XII əsrdə müsəlman-türk dünyasında təbabət elminə önəmli töhfələr verən alimlərdən biri olaraq Şərafəddin Tiflisiyi göstərir.

Gürcüstandakı müsəlman-türk alimləri içərisində Əbülfəz Hübeyş ibn Tiflisi önəmli yer tutmaqdadır. Qaynaqların verdiyi məlumatlara əsasən, Hübeyş ibn Tiflisi o dönəm digər Azərbaycan alimləri kimi Anadolu Səlcuqlu Sultanı II Qılınc Arslan (1155-1192) tərəfindən Konyaya çağırılmışdır. Ensiklopedik bilgilərə sahib olan bu alim ərəb və fars dillərinin qrammatikası sahəsində "Qanun-il ədəb", astronomiya sahəsində "Mədhal ilə ilmin-nücum", "Bəyan ün-nücum", tibb sahəsində "Kifayət ət-tibb" adlı məşhur əsərlərlə yanaşı kiçik kitablar və hekayələr də yazmışdır. Onun yuxuyozma elminə həsr etdiyi "Kamil üt-Təbir" adlı əsəri XVI əsrdə Xızır ibn Əbdülhadi tərəfindən ərəbcədən Azərbaycan dilinə tərcümə edilmişdir.

Tiflisdə yaşayıb yaratmış önəmli mədəniyyət nümayəndələri Azərbaycan musiqi sənətinə də böyük xidmətlər göstərmişlər. XII əsrdə yaşamış Məhəmməd əl-Qubançı və Yusif Ömər Tiflisi Azərbaycan türkcəsində "Tiflis muğamı" adlı musiqi bəstələmişlər. Bu muğam bəstəsini daha sonra Həmid əl-Səeid ərəb dilinə tərcümə etmişdir.

XII-XIII əsrlərdə Tiflislə yanaşı digər önəmli mədəniyyət mərkəzlərindən olan Dmanisidə də çox məşhur alimlər yaşamışdır. Qaynaqlarda belə alimlərdən biri dilçi və şair Əhməd ibn Əhməd əl-Dumanisinin adı çəkilir. Ancaq təəssüflər olsun ki, onun nə əsərlərinin adı, nə də ki, əsərlərinin özü günümüzə gəlib çatmamışdır.

Qaynaqlarda adları zikr edilən yuxarıdaki alimlərdən başqa XIII-XIV əsrlərdə bu bölgədə doğulmuş və yetişmiş çox sayda önəmli alimlərin adları keçir. Bunların içərisində 1273-cü ildə Misir Məmlüklü dövlətində qazi vəzifəsində çalışmış Əbülfət Ömər ibn Şaddad ibn Ömər Tiflisinin adını çəkmək yerinə düşər. Bundan əlavə XIV əsrin sonu XV əsrin əvvəllərində yaşamış Nəcməddin əl-Tiflisini göstərmək olar. Nəcməddin Məmlüklü sarayında sevilən və seçilən xəttatlardan biri olmuşdur. Bu alimləri Misir Məmlüklü dövlətinə cəlb edən səbəb dövlət başçısı Sultan Baybarsın həmyerlimiz olmasıdır. Bundan əlavə Məmlüklü dövləti o dönəm inkişaf etmiş önəmli mərkəzlərdən biri idi.

***Cəfər MUSTAFALI***
***Mərmərə Universiteti, Türkiyat Elmi Araşdırmalar İnstitutu, Ümumi Türk Tarixi üzrə magistr tələbəsi***

## UŞAQ BAĞÇALARI VƏ MƏKTƏBLƏRDƏ PEYVƏNDLƏR HAQQINDA ARAYIŞ TƏQDİM ETMƏK MƏCBURİ OLACAQ

Məktəb və uşaq bağçalarında uşaqların peyvənd olunması haqqında arayış təqdim etmək iyunun 1-dən məcburi olacaq. Səhiyyə komitəsinin sədri Akaki Zoidzenin bəyanatına görə, sağlamlıq haqqında məcburi arayışa peyvəndin status qrafası da əlavə olunacaq.

2019-cu ilin 1 yanvarından Gürcüstan ərazisində yaşayan bütün şəxslər Milli peyvənd təqvimi ilə müəyyən edilmiş profilaktik peyvəndləri etdirməyə məcburdur.

Akaki Zoidze bildirib ki, bu, uşaqların sağlamlığını və həyatını qorumaq üçündür. O, eləcə də qeyd edib ki, tibbi personal valideynlərdən uşaqlarını peyvənd etdirmələrini tələb etməyə məcbur olacaq.

A.Zoidzenin sözlərinə görə, hələ ki, sanksiyalar qoyulmayıb, amma əgər valideynlər uşaqlarını peyvənd etdirməsələr sanksiyaların təyin edilməsi istisna deyil.

"Ola bilsin bağçaya qəbul olunan zaman peyvənd edilmiş uşaqlara üstünlük verilsin", - deyə A.Zoidze bildirib.

Profilaktik peyvəndlər üzrə Milli təqvimə əsasən 14 yaşa qədər uşaqlar üçün 10 məcburi peyvənd nəzərdə tutulub, onlardan 9-u 5 yaşa qədər vurulur.

Məcburi peyvənd ABŞ və Avropanın bir neçə ölkəsində, həmçinin Fransa, İtaliya və Almaniyada da edilir. Dünya Səhiyyə Təşkilatının məlumatına görə, 2018-ci ilin ilk 6 ayında Avropada kəskin infeksiya virusunun – 41 min qızılca halı qeydə alınıb, onlardan 37-si ölümlə nəticələnib. 2017-ci ildə 24 min, 2016-cı ildə isə 5 mindən artıq qızılca halı qeydə alınıb. Ekspertlərin fikrincə, qızılca infeksiyasına yoluxmanın göstəricisinin artması peyvəndlərə nadir hallarda müraciət etmə ilə bağlıdır.

**Gürcüstanda peyvəndin tarixi**

Peyvəndə görə 2000-2016-cı illərdə qızılcadan ölmə halları 84 faiz azaldı və 20 milyondan artıq adamın həyatı xilas oldu. Vərəm, poliomielit, difteriya, tetanus, göyöskürək və qızılcaya qarşı peyvəndləmə dünyada hər il 2,5 milyona qədər uşağın, B hepatitə qarşı peyvəndləmə 0,6 milyon adamın həyatını xilas edib.

2013-2014-cü illərdə Gürcüstanda 11 min qızılca halı qeydə alınıb və onun 3-ü ölümlə nəticələnib. Əsasən 1 yaşa qədər və 15-dən 30 yaşa qədər olanlar xəstəliyə yoluxurdu.

2008-ci ildə 6-dan 27 yaşa qədər olanların kütləvi peyvəndləmə kampaniyası aparıldı. Əvvəlcədən planlaşdırılmış milyon adamın əvəzinə yalnız yarısı (50,3%) peyvəndləndi. Bu, 2013-2014-cü illərin epidemiyasına səbəb oldu.

2017-ci ildə 94 qızılca halı qeydə alındı və onun 13 faizi 1 yaşa qədər olan uşaqlar idi, 33 faizi isə 14 yaşdan yuxarı olanlar. 2018-ci ilin may ayının sonunda qızılca hallarının sayı 864-ə çatdı. İki nəfər dünyasını dəyişdi.

## NƏQLİYYAT VASİTƏLƏRİNİN MƏCBURİ TEXNİKİ BAXIŞI HAQQINDA NƏYİ BİLMƏLİYİK

2019-cu ilin yanvarın 1-dən bütün növ nəqliyyat vasitələrinə texniki baxışdan keçmək məcburidir. Son müddət isə avtomobilin istehsal ayına və tarixinə bağlıdır.

Yüngül və qoşqulu nəqliyyat vasitələrinin texniki baxışının dəyəri 60 lari, yük maşını və sərnişin avtomobillərinin isə 100 laridir.

Əgər sahibi avtomobildən texniki baxışdan keçməmiş istifadə edərsə, fiziki şəxslərə 50 lari, hüquqi şəxslərə isə 200 lari cərimə tətbiq olunacaq.

Texniki nəzarət zamanı avtomobildə yoxlanılır: əyləc sistemi, səsboğan, ehtiyat hissələri, sükan mexanizmi, təkərlər, şüşələr, faralar və elektrik qurğuları.

**Texniki baxışın müddəti**

1. Sərnişin (sürücüdən əlavə 8-dən artıq sərnişin oturacağı olan) kateqoriyasına aid nəqliyyat vasitələri istehsal tarixindən sonra 1 il müddətində və sonra hər il, istehsal tarixindən 4 il sonra isə ildə iki dəfə texniki nəzarətdən keçəcəklər;

2. Yük maşını (3.5 ton və daha artıq) – istehsal tarixindən 1 il sonra və daha sonra hər il;

3. Qoşqulu və yarım qoşqulu (3.5 tondan artıq) – istehsal tarixindən 1 il sonra və daha sonra hər il;

4. Təcili yardım avtomobili və taksilər – istehsal tarixindən 1 il sonra və daha sonra hər il;



5. Yüngül sərnişin avtomobili – istehsal tarixindən 4 il sonra və daha sonra hər 2 ildə 1 dəfə, istehsal tarixindən 8 il sonra isə hər il texniki baxışdan keçməlidir;

6. Yüngül yük maşını – istehsal tarixindən 4 il sonra və daha sonra hər il.

**Əlavə məlumat**

Avtomobilin texniki baxışı Assosiasiya Sazişi ilə nəzərdə tutulub və Gürcüstan mütləq bunu yerinə yetirməlidir. Maşınların mərhələli şəkildə yoxlanılması Gürcüstanda 2018-ci ilin 1 yanvarından başlayıb. 2019-cu ilin 1 yanvarından isə bütün avtomobillər üçün məcburi oldu. Texniki baxışın yekun müddəti avtomobilin istehsal tarixinə görə müəyyən edilir.

Statistik göstəricilərə əsasən, 2018-ci ilin 1 yanvarından 2019-cu ilin 8 yanvarına qədər cəmi 138 503 nəqliyyat vasitəsi texniki baxışdan keçib. Bunun 95 580-i qaydasındadır, 39 304-i isə problemlidir.

# MƏKTƏBLƏRDƏ TƏHLÜKƏSİZLİK VƏ İCTİMAİ ASAYİŞİ QORUMAQ MƏQSƏDİ İLƏ MÜƏYYƏN EDİLMİŞ ŞƏXSİN HAZIRLANMA QAYDASI TƏSDİQLƏNİB

Gürcüstanın təhsil, elm, mədəniyyət və idman naziri Mixeil Batiaşvilinin sərəncamı ilə məktəb direktorları tərəfindən ümumtəhsil müəssisələrində təhlükəsizlik və ictimai asayişin qorunması məqsədi ilə müəyyən edilmiş şəxsin hazırlanması qaydası və komponentləri təsdiqlənib.

Qaydanın məqsədi məktəb ərazisində, mandatur olmayan məktəblərdə dərs zamanı təhlükəsizlik və ictimai qaydanın qorunmasını təmin edən səlahiyyətli şəxsin hazırlanmasıdır. Mandatur olan məktəblərdə isə qeyd olunan şəxs mandatura ictimai qaydanın və təhlükəsizliyin qorunmasında kömək göstərəcək.

Məktəb direktoru tərəfindən müəyyən edilmiş təhlükəsizliyə cavabdeh olan şəxsin hazırlanmasını ümumtəhsil müəssisəsinin mandatur xidməti təmin etməlidir.

Səlahiyyətli şəxsin hazırlanması mandatur xidmətinin rəhbəri tərəfindən verilmiş fərdi administrativ-hüquqi aktla müəyyən edilmiş təlim-modula uyğun olaraq həyata keçiriləcək və sonrakı komponentlərdən ibarət olacaq:



• Səlahiyyətli şəxsin əsas hüquq-öhdəlikləri.
• Məktəbdə baş vermiş pozuntuların identifikasiyası.
• Təxirə salınmaz və böhran hallarında reaksiya göstərmək.
• Zorakılıq qurbanı olan uşağın fiziki, hərəkət və emosional işarələrini tanımaq.
• Zorakılığa tez və vaxtında reaksiya göstərmək.
• Zorakılıq qurbanı olan uşağın müvafiq müəssisələrə ünvanlandırılması.

Mandatur xidməti həmçinin səlahiyyətli şəxslərin hazırlanması məqsədi ilə trenerlərin seçilməsini və onların hazırlanma prosedurlarına qoşulmasını təmin edir.

Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin ərazi orqanı-ümumtəhsil resurs mərkəzləri təmin edir:

• Hazırlanacaq şəxslərin qruplarının təşkil olunmasını və onların reyestrinin yaradılmasını.
• Mandatur xidməti ilə razılıqla səlahiyyətli şəxslərin hazırlanması vaxtının müəyyən edilməsi və başqa təşkilati məsələlərin həlli.

Mandatur xidməti təlim-modulu uğurla başa vuran təlim iştirakçısına daimi olan sertifikat verəcək.

# MİXEİL BATİAŞVİLİ: TƏHSİL REFORMASI ÇƏRÇİVƏSİNDƏ VACİB PRİORİTETLƏRDƏN BİRİ GÜRCÜ DİLİNİN TƏDRİSİNƏ MAKSİMUM DƏSTƏK OLMAQDIR



Zurab Jvania adına Dövlət İdarəçilik Məktəbinin işçi qrupu və UNHCR-ın (BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı) regional nümayəndəliyi tərəfindən ilk dəfə Gürcüstanda yeni tədris resursu – “Gürcü dilini audio dərslərlə öyrən” yaradılıb. Layihənin təqdimatı Gürcüstanın Təshil, Elm, Mədəniyyət və İdman Nazirliyində baş tutub.

Kompakt disk 12 audio dərsdən və müvafiq illustrasiyalardan ibarətdir. Tədris resursu beynəlxalq mühafizə altında olan, UNHCR-ın mandatına aid olan, sığınacağı və vətəndaşlığı olmayan şəxslərə gürcü dilini öyrənməyə kömək edəcək. Bu, onların cəmiyyətə inteqrasiya olmasını asanlaşdıracaq.

Qeyd olunan audio dərslər internet məkanında da əlçatan olacaq. Dərslər məktəbin rəsmi veb-səhifəsi www.zspa.ge-yə və UNHCR-ın tərəfdaş veb-səhifələrinə yerləşdiriləcək. İstəyənlər dərsləri pulsuz dinləyə biləcəklər. Layihə çərçivəsində audio dərslər milli azlıq nümayəndələrinə veriləcək.

Gürcü dilini öyrənmək istəyən xarici ölkə vətəndaşları da onlayn versiyadan istifadə edə biləcəklər.

# TBİLİSİ UNİVERSİTETLƏRİNDƏ FİNAL İMTAHANLARININ VAXTI 10 GÜN UZADILIB

Tbilisi İ.Cavaxişvili adına Dövlət Universiteti və İlia Universitetindən bildiriblər ki, “donuz qripi” virusunun təhlükəsinə görə 11 yanvara planlaşdırılmış final imtahanları 21 yanvara qədər təxirə salınıb. Bu haqda məlumatı tələbələrə universitetlər göndəriblər.

Qrip təhlükəsinə görə tədris 21 yanvara qədər məktəblərdə də təxirə salınıb. Tətil günləri həmçinin Tbilisi uşaq bağçalarında da uzadılıb.



# BİRİNCİ SİNİFLƏRİN QEYDİYYAT MƏRHƏLƏSİNƏ DÖRDÜNCÜ MƏRHƏLƏ DƏ ƏLAVƏ OLUNUB

Təhsil nazirinin “Gürcüstan ümumtəhsil müəssisələrinə şagirdin qəbul olunması üçün təqdim olunan vacib sənədlərin surəti” və “Ümumtəhsil müəssisələrinə şagirdin qəbul olunması və şagird statusunu dayandırması qaydasının təsdiqlənməsi” haqqında sərəncamına dəyişiklik daxil edilib.

Dəyişikliklər xüsusi ehtiyacı olan şagirdlərin xeyrinə həyata keçirilib.

İctimai məktəbin birinci sinfinə qəbul olacaq şagirdlərin sayı sektorlara əsasən ictimai məktəb direktorunun fərdi administrativ-hüquqi aktı ilə müəyyən ediləcək. Məktəb hər birinci sinfə qəbul olan şagirdlərin sayının ən azı 10%-ni xüsusi tədrisə ehtiyacı olan şagirdlər üçün nəzərdə tutmağa məcburdur. Sayın müəyyən edilməsi zamanı hesablama xüsusi təhsilə ehtiyac duyan şagirdlərin xeyrinə həyata keçirilir. Sayın müəyyən edilməsi zamanı inteqrasiya olunmuş sinfə qəbul olunan uşaqların sayı nəzərdə tutulmur. İnteqrasiya olunmuş sinfin/siniflərin fəaliyyət göstərdiyi ictimai məktəblərə bu maddənin birinci bəndinə əsasən nəzərdə tutulmuş 10%-dən əlavə ən azı 8 nəfər xüsusi tədrisə ehtiyac duyan şagird qəbul olunmalıdır.

İctimai məktəb sektorlara uyğun olaraq birinci sinfə qəbul olan şagirdlərin (həmçinin xüsusi tədrisə ehtiyacı olan şagirdlər) sayı haqqında göstəriciləri ümumtəhsil müəssisələrinin idarəsi üzrə məlumat sistemində təsvir etməlidir.

Qeyd olunan dəyişiklikləri nəzərə alaraq birinci sinfə qəbul olmaq üçün müəyyən edilmiş mərhələlərdən biri artıb və qeydiyyat dörd mərhələdə aparılacaq:

a) Birinci mərhələ – xüsusi tədrisə ehtiyacı olan şagirdlər;

b) İkinci mərhələ – qeyd olunan ictimai məktəbdə bacı və ya qardaşı təhsil alan, valideyni/qəyyumu/dayəsi həmin məktəbin əməkdaşı olan, eyni zamanda ailədən iki və ya daha çox uşağın birinci sinfə daxil olduğu şagirdlər;

c) Üçüncü mərhələ – qeyd olunan bəndin “a” və “b” altbəndləri ilə müəyyən edilmiş şəxslərin dairəsinə aid olan (ümumi qeydiyyat) şagirdlər;

ç) Dördüncü mərhələ – qeyd olunan bəndin “a” və “c” altbənləri ilə nəzərdə tutulmuş şəxslərin qeydiyyatı üçün bu maddənin 2-ci bəndi ilə müəyyən edilən müddətdə şagirdin valideyni/qəyyumu tərəfindən şagirdin qəbulu üçün təqdim olunan sənədlərin ictimai məktəbə təqdim olunmaması halında boşalan və ya azad yerlərə qəbul;

“a”, “b” və “ç” altbəndləri ilə müəyyən edilən hallarda birinci sinfə qəbul olan şagirdin valideyninin/qanuni nümayəndəsinin müraciəti əsasında qeydiyyatını/qeydiyyatın ləğv edilməsini valideynin/qanuni nümayəndənin uşağı daxil etmək istədikləri ictimai məktəb təmin edir.

Birinci sinfə qəbul olan şagirdin valideyni/qanuni nümayəndəsi şəxsin xüsusi tədrisə ehtiyacı olduğunu qeyd edir və multidisiplin komandası tərəfindən birinci sinfə qəbul olan şagirdin qiymətləndirilməsinin tələbi məqsədi ilə nazirin fərdi administrativ-hüquqi aktı ilə təsdiqlənmiş müraciət formasını doldurmalıdır və müvafiq sənədlərlə birgə (belə sənəd olduğu halda) təqdim etməlidir.

Multidisiplin komandasının tədqiqatına əsasən birinci sinfə qəbul olan şagirdin xüsusi tədrisə ehtiyac duymasının müəyyən edilməməsi, eləcə də birinci sinfə qəbul olan şagirdin qanuni nümayəndəsinin ortaya çıxmaması səbəbindən şagirdin xüsusi tədrisə ehtiyac duymasının qiymətləndirilməməsi məktəb tərəfindən şagirdin qeydiyyatının ləğv edilməsi üçün əsasdır. Qeydiyyatın ləğv olunması halında birinci sinfə qəbul olan şagird bu maddənin 3-cü bəndinin “b” və “ç” altbəndləri ilə nəzərdə tutulmuş müddətdə qeydiyyat olunmalıdır.

Məktəb bu maddənin 11-ci bəndi ilə nəzərdə tutulmuş hallarda xüsusi tədrisə ehtiyacı olan şagirdlərin qeydiyyatdan çıxarılması və qeydiyyat vaxtının elan edilməsi haqqında onların qanuni nümayəndələrinin məlumatlandırılmasını təmin etməyə məcburdur.

Xüsusi tədrisə ehtiyacı olan şagirdlərin qeydiyyatının elan edilməsi, multidisiplin komandası tərəfindən şagirdin xüsusi tədrisə ehtiyac duyamsının qiymətləndirilməsi və nəticənin hazırlanması müddəti nazirin fərdi administrativ-hüquqi aktına əsasən müəyyən edilir.

# GÜRCÜSTANIN 2019-CU İL BUDCƏSİ NECƏ OLACAQ?

**Büdcə gəlirləri necə olacaq?**

Büdcənin əsas hissəsi gəlirlərdir. Hökumətin xərclərə nə qədər pulunun olacağı büdcə gəlirlərindən asılıdır. Büdcə gəlirləri isə öz növbəsində ölkənin iqtisadi inkişafından asılıdır.

Məsələn, Almaniya kökuməti ildə 1500 milyard dollar xərcləyir, Rusiya hökuməti isə 254 milyard dollar, baxmayaraq ki, Rusiyada Almaniya ilə müqayisədə demək olar ki, iki dəfə daha artıq insan yaşayır, Rusiya ərazisi isə Almaniya ərazisindən 48 dəfə böyükdür.

2018-ci ildə Gürcüstanın dövlət büdcəsindən 12.5 milyard lari xərclənib. 2019-cu ildə Gürcüstan hökuməti təqribən 13 milyard lari xərcləyəcək. Müqayisə üçün Latviya və Estoniya hökumətləri ildə iki dəfə çox 10 milyard dollar xərcləyir, baxmayaraq ki, hər iki ölkənin ümumilikdə əhali sayı Gürcüstan əhalisinin sayından azdır. Yəni Gürcüstan az gəlirli ölkədir və 2019-cu ildə də az gəlirli olaraq qalır.

Gəlirlər nədən ibarətdir? İlkin proqnozlara görə, Gürcüstan iqtisadiyyatı 2019-cu ildə təxminən 45 milyard lari təşkil edəcək. 10,9 milyard lari həcmində gəliri dövlt büdcəsi ölkə iqtisadiyyatından əldə edəcək, 2.2 milyard larini isə borc götürəcək.

İqtisadiyyatdan əldə edilən gəlirləri daha detallı nəzərdən keçirmək üçün: ən böyük gəliri – 9,6 milyard larini hökumət vergilərdən qazanacaq, bu da 2018-ci il göstəricisini 155 milyon lari üstələyir.

383 milyon lari büdcəyə qrantlardan, 460 milyon lari isə digər gəlirlərdən daxil olur və dövlət müəssisələrinin gəlirlərini, cərimələri, icazələri və digər mənbələri əhatə edir.

Hökumət özəlləşdirmədən 70 milyon lari, daha əvvəl verilmiş kreditlərin geri qaytarılmasından və depozitlərin istifadəsindən isə 346 milyon lari əldə etməyə ümidlidir.

**Pullar nəyə xərclənəcək? 2019-cu il büdcəsinin əsas prioritetləri**

2019-cu il dövlət büdcəsinin xərcləri 2018-ci illə müqayisədə 630 milyon lariyə qədər artır və cəmi 13.1 milyard lari xərclənəcək.

1. Ən çox – 2.5 milyard lari infrastruktur (əsaslı) layihələrinə xərclənəcək ki, bu da ötən illə müqayisədə 500 milyon lari artım deməkdir. Bunun ən çox hissəsi (1.3 milyard lari) yol infrastrukturunun yaxşılaşdırılmasına xərclənəcək, məsələn, sürətli avtomobil magistralına 813 milyard lari ayrılıb. Su infrastrukturunun bərpa-reabilitasiyasına 300 milyon lari, ictimai məktəblərin inşaat-reabilitasiya işlərinə 73 milyon lari və s. xərclənəcək.

2. İkinci yerdə ötən illə müqayisədə artan pensiya xərcləridir. 2019-cu il yanvarın 1-dən Gürcüstanda pensiya 20 lari artaraq ayda 200 lari təşkil edəcək. 2019-cu ildə pensiya xərcləri ümumilikdə 2 milyard lariyə çatacaq. 2018-ci ildə pensiyalara 1,7 milyard lari xərclənib.

3. Həcminə görə üçüncü yerdə gələn xərc dövlət borcunun bağlanması üçün ayrılan vəsaitdir – 1.6 milyard lariyə qədər. Bunun 934 milyon larisi borc məbləğinin bağlanmasına, 624 milyon larisi isə faizlərin ödənməsinə gedir.

Amma bu o demək deyil ki, 2019-cu ildə ölkənin borcu azalacaq. Əksinə, 2019-cu il hökumət 2.2 milyard lari həcmində yeni xarici borc götürmək niyyətindədir, çünki iqtisadiyyatdan əldə edilən gəlirlər bütün xərclərin ödənməsinə yetmir. Son nəticədə borcun əsas məbləğinin ödənməsi hesabı ilə ölkənin dövlət borcu 1 milyard 252 milyon lariyə yüksələcək.




4. 2019-cu il təhlisin maliyyələşdirilməsi 129 milyon lariyə yüksələcək və bu sahəyə 1.4 milyard lari xərclənəcək. O cümlədən də, ümumi təhsilin maliyyələşdirilməsi 48 milyon lariyə, peşəkar təhsilin maliyyələşdirilməsi 6 milyon lariyə, ali təhsilin maliyyələşdirilməsi isə 20 milyon lariyə yüksələcək. Bu, həcminə görə büdcədə dördüncü yeri tutan xərcdir.

5. 2019-cu ildə səhiyyəyə 1.1 milyard lari xərclənəcək ki, bu da 2018-ci illə müqayisədə 60 milyon lari çoxdur. Bunun 754 milyon larisi ümumxalq səhiyyə proqramının maliyyələşdirilməsi büdcəsinə sərf olunacaq ki, bu da 50 milyon lari həcmində yüksəliş deməkdir.

Amma əgər nəzərə alsaq ki, 2018-ci ildə ümumxalq səhiyyəsinə planlaşdırıldığından 30-35 milyon lari daha çox xərclənib, deməli, o zaman növbəti il səhiyyə proqramının maliyyələşdirilməsi reallıqda 50 yox, yalnız 15-20 milyon lari təşkil edəcək.

**Ən çox vəsaiti hansı nazirlik əldə edəcək?**

Ən böyük büdcə – 4 milyard lariyə qədər – İşğal Olunmuş Ərazilərdən Məcburi Köçkünlərin İşləri, Əmək, Səhiyyə və Sosial Müdafiə Nazirliyinin olacaq. Bu vəsaitlər əsasən pensiyalara və sosial yardıma xərclənəcək.

Ardınca 2 milyard lari ilə Regional İnkişaf və İnfrastruktur Nazirliyi və 1.5 milyard lari ilə Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi gəlir.

**Əvvəlki illərlə müqayisədə nə dəyişir? 2019-cu il büdcəsində əhəmiyyətli dəyişikliklər**

2019-cu il büdcə təşkilatlarında çalışanların sayı 113613 nəfərdən 112072 nəfərə qədər azalacaq, yəni 1541 nəfər işini itirəcək.

Əsas dəyişikliklərdən biri yerli idarəetmə, yeni bələdiyyə vahidlərini əhatə edir. 2019-cu ildə onların maliyyələşdirilməsi qaydası dəyişir.

Ötən illərdən fərqli olaraq, bələdiyyələr dövlət büdcəsindən bərabərləşdirici transfer almayacaq. Bərabərləşdirici transferlə bələdiyyələr dövlət büdcəsindən tələbatlarına uyğun vəsait alırdı.

Bunun əvəzində yeni qaydaya uyğun olaraq yerli büdcələr Əlavə Dəyər Vergisi (ƏDV) sayəsində dolacaq. Bələdiyyələr ƏDV-nin 19 faizini alacaq ki, bu da 2019-cu il planına əsasən 947 milyon lari təşkil edir.

Köhnə qaydaya əsasən, 2019-cu ildə bələdiyyələr 901 milyon lari əldə edə bilərdilər. Belə çıxır ki, yeni qayda yeni bələdiyyələrin maliyyələşdirilməsini 46 milyon lari həcmində artırıb.

Bundan başqa, əgər əvvəl yerli büdcələr yalnız dolayısı ilə ölkə iqtisadiyyatının yüksəlişi ilə bağlı idilərsə, 2019-cu ildən onlar birbaşa onunla bağlı olacaqlar, çünki iqtisadiyyatın yüksəlişi ilə birlikdə ƏDV-dən əldə olunan gəlir də yüksələcək. Bu, yerli büdcələrin mərkəzi hökumətdən asılı olmaması deməkdir.

ƏDV-dən əldə olunan 947 milyon lari bütün ölkə miqyasında bələdiyyələr arasında xüsusi formula əsasən bölüşdürülüb.

Hər bir bələdiyyənin nə qədər vəsait alacağı bir neçə amildən asılı olacaq – bələdiyyənin sahəsi, sakinlərin sayı, 6 yaşa qədər uşaqların sayı, 6 yaşdan 18 yaşa qədər uşaqların və yeniyetmələrin sayı, bu bələdiyyədə yüksək dağlıq ərazilərin sakinləri statusu alan sakinlərin olub-olmamasından və s. asılı olacaq.

Bu meyarlardan asılı olaraq 947 milyon larinin demək olar ki, 50 faizini (473 milyon lari) Tbilisi, beş faizini (48 milyon lari) Batumi, 3.5 faizini (33 milyon lari) Kutaisi və s. əldə edəcək. ƏDV-nin 19 faizi bələdiyyələrə yönəldiyi üçün dövlət büdcəsinə ƏDV-dən daxilolmalar azalacaq.

Əvəzində dövlət büdcəsinin xərcləri də 687 milyon lari azalacaq, çünki bələdiyyələri bərabərləşdirici transferlə maliyyələşdirməli olmayacaq.

2019-cu ilin büdcəsinə tətbiq olunan daha bir mühüm dəyişiklik: 2019-cu ildə Gürcüstan prezidentinin maliyyələşdirilməsi 14.8 milyon laridən 6 milyon lariyə enəcək.

Bilavasitə Prezident Administrasiyasının maliyyələşdirilməsi 3.8 milyon lari azalacaq. Qalan 5 milyon lariyə 5 milyonluq prezident fondunun tam ləğv olunması sayəsində qənaət etmək mümkün olacaq.

Prezident Administrasiyasında isə 140 nəfər əvəzinə 60 nəfər çalışacaq. Prezident Administrasiyasından qənaət olunmuş vəsait pensiya islahatları çərçivəsində yaradılan yeni struktura – "Pensiya Agentliyi" ictimai hüquqlu hüquqi şəxsə veriləcək.

2019-cu ildə agentliyin maliyyələşdirilməsi 3.8 milyon lari təşkil edəcək və onun aparatında 50 nəfər çalışacaq. Bununla yanaşı pensiya ödəmələrinə vəsait əlavə etmək məqsədilə büdcədən 90 milyon lari ayrılacaq. Yeniliklər sırasında 2019-cu ildən yeni məktəblərin reabilitasiyası və inşaatı ilə Təhsil Nazirliyinin yox, Regional İnkişaf və İnfrastruktur Nazirliyinin məşğul olacağı da daxildir. Bu iş üçün 72.5 milyon lari ayrılacaq.

Mənbə: JamNews

# QRİPƏ YOLUXMAMAQ ÜÇÜN NƏ ETMƏLİ?

Yanvar-fevral aylarında təkcə Gürcüstanda deyil, bütün Şimal Yarımkürəsində qrip mövsümüdür. Qripin ən geniş yayılmış xəstəliklərdən biri olmasına baxmayaraq, çoxları onun haqqında ətraflı bilgilərə malik deyillər.

"JAMnews" qrip virusu ilə bağlı ən geniş yayılmış sualları toplayıb. Materialı hazırlayarkən biz ancaq Ümumdünya Səhiyyə Təşkilatı (WHO), ABŞ-ın Xəstəliklərə Nəzarət Mərkəzi (CDC) və Kokreynov Tibbi Kitabxanasının məlumatlarını, həmçinin Gürcüstanın təcrübəli pediatrı Maka Lomidzenin məsləhətlərini əsas götürmüşük.

**Niyə qripə qarşı peyvənd olunmalıyıq?**

Qrip (influenza) potensial olaraq kifayət qədər təhlükəli xəstəlikdir. Hər il qripə milyonlarla insan yoluxur. Yüz minlərlə adam xəstəxanaya düşür, minlərlə adam ölür.

Mövsüm qripinə qarşı peyvənd ondan qaçmağın ən yaxşı vasitəsidir.

Qripə qarşı peyvənd xəstəlik riskini, bundan başqa, qripə görə xəstəxanaya düşmək hallarını və nəticədə ölüm hallarını xeyli azaldır.

**Peyvənd necə işləyir?**

Peyvənddən sonra anticismlərin (immunoqlobulinlər, qoruyucu zülallar) istehsalı başlayır, buna da iki həftə vaxt lazımdır.

Məhz bu anticisimlər peyvəndin tərkibinə daxil olan qrip vurislarından müdafiəni təmin edirlər.

Hər il tədqiqatlar yolu ilə cari mövsümdə fəal olacaq viruslar müəyyən olunur və qripə qarşı peyvənd də məhz onlardan qoruyur.

Bu gün qripdən iki peyvənd növü mövcuddur – üçvalentlik peyvənd (bura A qripinin iki növü – H1N1, H3N2 və B qripinin bir növü – B/Colorado/06/2017 daxildir);

Və dördvalentlik peyvənd (yuxarıda qeyd olunan üç tipdən başqa B qripinin daha bir növü olan B/Phuket/3073/2013 əlavə olunur).

Qripin xeyli daha çox sayda növü mövcuddur, amma bu dörd növ son zamanlar xeyli daha çox yayılıb. Buna görə də peyvəndlərin tərkibinə məhz bu növlər daxildir.

ABŞ-ın Xəstəliklərə Nəzarət Mərkəzi (CDC) bir çox başqa ölkələrdə olduğu kimi, hər iki növ lisenziyalaşdırılmış peyvəndi tövsiyə edir. Hesab olunur ki, onların heç biri digərindən üstün deyil. Sadəcə hər iki peyvəndin öz xüsusiyyətləri var, onları da həkim sizə vaksinasiya zamanı asanlıqla izah edəcək və ikisindən sizə daha uyğun olanını seçəcək.

**Peyvənd kimlərə mütləq lazımdır?**

6 ayı tamam olan hər kəsə. Özü də hər il.

ABŞ-ın Xəstəliklərə Nəzarət Mərkəzinin (CDC) mütəxəssisləri hesab edir ki, yüksək risk qrupuna daxil olan insanlar mütləq peyvənd olunmalıdır.

Bu qruplar:

- Artıq 6 ayı tamam olmuş uşaqlar;
- 65 yaşdan böyük olan yaşlı insanlar;
- Hamilələr;
- Tibb müəssisələrinin işçiləri;
- Müxtəlif xroniki xəstəliklərdən əziyyət çəkən insanlar (diabet, astma, xroniki ürək, ağ ciyər, əsəb sistemi, böyrək, qara ciyər və digər orqanların xəstəlikləri);
- Qeyd olunan risk qrupları ilə birlikdə yaşayan və ya təmasda olan insanlar (misal üçün, körpə uşağın valideynləri və ya astma xəstəsinin ailə üzvləri).

**Nə vaxt peyvənd olunmaq lazımdır?**

Peyvənd üçün ən yaxş vaxt qrip mövsümü başlayana qədərdir – hardasa oktyabrın axırlarında.

Amma bu o demək deyil ki, bu vaxta qədər peyvənd olunmasaz, bundan sonra etmək olmaz.

"Peyvənd olunmaq gecdir" deyənlərə inanmayın. Peyvəndin laboratoriya şəraitində təsdiq olunan qripi keçirəndən sonra da xeyri var.

Niyə? Ona görə ki, yuxarıda yazdığımız kimi, peyvəndin tərkibində 3 və ya 4 qrip virusu var və hətta insan bir qripi keçiribsə, başqa növ qripə yoluxmaq riski qalır.

**Peyvəndin hər il təkrarlanmasına nə ehtiyac var?**

Bunun iki səbəbi var:

- Birinci səbəb: Qrip virusuna immun yaddaşı (yəni müdafiənin müddəti) uzun deyil. Yeni mövsüm başlayana qədər ötən il alınan müdafiə tədricən zəifləyir, buna görə də optimal nəticə üçün hər il peyvənd olunmağa ehtiyac var.
- İkinci səbəb: Qrip virusunun düsturu daimi dəyişir. Deməli, peyvəndin düsturunun da hər il yenidən nəzərdən keçirilməsi və yenilənməsinə ehtiyac yaranır.

**Peyvənd olunsam, bu o deməkdir ki, qripə yoluxmayacam?**

Peyvənd qripdən tamamilə deyil, 60 faiz qoruyur.

Peyvənd olunan insan qripə aşağıdakı səbəblərdən yoluxa bilər:

- Ola bilsin, siz peyvənddən bir az əvvəl və ya olunandan bir az sonra qripə yoluxmusuz (yadınıza salın ki, anticisimlərin istehsalına iki həftə lazımdır).
- Təbiətdə çox sayda qrip virusu var. Peyvəndin tərkibinə isə cəmi iki və ya üç növ daxildir. Deməli, siz peyvəndin tərkibinə daxil olmayan qrip virusu ilə üzləşə bilərsiz.
- Peyvəndin tərkibinə daxil olan qrip virusuna da yoluxmaq olar. Heç kim demir ki, peyvənd 100 faizlik müdafiəni təmin edir.

Müdafiə dərəcəsi bir çox amillərdən, o cümlədən, yaşdan, sağlamlıq durumundan asılıdır. Bu mənada ən yaxşı nəticələr gənclərdə və uşaqlardadır.

Yaşlı və ya xroniki xəstəliklərdən əziyyət çəkən insanların immun cavabı zəifdir. Bir yaxşı xəbər də var ki, peyvənd xəstəliyin ağırlığına müsbət təsir göstərir – xroniki xəstəliklərdən əziyyət çəkən və ya yaşlı insanlara peyvənd olunubsa, onlar xəstəliyi peyvənd olunmayanlardan daha asan keçirir. Xəstəxanaya daha az-az düşəcəklər, ölümlə nəticələnmə riski də azalacaq.

Nəticə: Peyvənd mükəmməl vasitə olmasa da, qripdən müdafiə üçün mövcud olan vasitələrin ən yaxşısıdır.

**Peyvəndin əlavə təsirləri varmı?**

Yoxdur. Peyvənddən qorxmaq lazım deyil. Peyvəndin səbəb ola biləcəyi yeganə xoş olmayan fəsad peyvənd yerində zəif ağrılar və qızartı ola bilər. Nadir hallarda peyvənd olunan adamların qızdırması olur, başı və əzələləri ağrıyır, zökəm də ola bilər, amma bütün bunlar uzağı iki günə keçir.

**Qızdırmam olan kimi, "Tamiflu" içəcəm.**

Ümumdünya Səhiyyə Təşkilatının Gürcüstan ofisinin rəhbəri Marian İvanuşa xüsusi brifindqə qeyd edib ki, dərman konfet deyil və onu özbaşına qəbul etmək olmaz.

Bu, o cümlədən "Tamiflu"ya – indiki dövrdə bazarda analoqu olmayan qrip virusuna qarşı olan preparata da aiddir.

Onun sözlərinə görə, əksər pasientlərin güclü antivirus




preparatı olan "Tamiflu"ya ehtiyacı yoxdur, onu müstəsna hallarda qəbul etmək lazımdır.

"Tamiflu" antibiotikə bənzəyən antivirus preparatıdır. Amma antibiotikdən fərqli olaraq, o, bakteriyalar deyil, virusa qarşıdır.

**Qripə yoluxmamaq üçün peyvənddən başqa daha nə etmək olar?**

Gigiyena qaydalarına riayət edin və virusun fəal yayıldığı dövrlərdə qələbəlik yerlərdən qaçın.

Virusun selikli qişaya düşməməsi vacibdir. Bunun üçün vacibdir:

- Əlləri tez-tez və düzgün sabunla yumaq (yanınızda su yoxdursa, əlləri təmizləmək üçün olan və istənilən aptekdə satılan xüsusi antibakterial vasitələrdən istifadə etmək. Yeri gəlmişkən, qrip virusunun yayıldığı vaxt bu, çantanızda oksolin mazından xeyli daha lazımlı şeydir).
- Gözlər, burun və ağıza – selikli qişanın olduğu yerlərə toxunmamaq.
- Qələbəlik yerlərdən bacardığınız qədər qaçın.

Daha bir qızıl qayda – qripə yoluxmuş insan başqalarından izolyasiya olunmalıdır. Bu zaman işə getmək və yaxınlarınızla sıx təmasda olmaq yolverilməzdir.

CDC tövsiyə edir ki, qrip keçirmiş insan sonuncu dəfə qızdırması olandan sonra əlavə 24 saat ərzində evdə qalmalıdır.

İkinci qızıl qayda – qripə yoluxmuş insan düzgün asqırmalı və öskürməlidir. Ağzınızı və burnunuzu birdəfəlik kağız salfetlə tutun, istifadədən dərhal sonra da onu atın. Salfetiniz yoxdursa, üzünüzü dirsəyinizdə gizlədin. Çılpaq barmaqlar və ya biləyinizdən istifadə etməyin – çünki həmin əllərlə müxtəlif əşyalara toxunacaq və virusu yayacaqsız. Həm də virusun yayılması mənbəyinə çevrilə biləcək parça dəsmaldan istifadə etməyin.

**Hidrogen peroksidi və burunda sarımsaq?**

Hidrogen peroksidi içmək və ya damızdırmağın mənasız olması barədə danışmağa dəyməz. Bu, heç bir kömək etməsə də, zərər yetirə – yandıra biləcək.

Sarımsaq da böyük ehtimalla kömək etməyəcək. Sarımsaq və ya C vitamininin qriplə əlaqədar profilaktik effektini sübut edən elmi iş mövcud deyil.

Yeri gəlmişkən, tibbi maska da xüsusi nəticə vermir. Düzdür, maskada olanda siz üzünüz, ağzınız və burnunuza daha az toxunursuz.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI
15 YANVAR 2019-CU İL/ №001 (81)

# Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | იენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## GÜRCÜSTAN VƏ ERMƏNİSTAN BMT-NİN ƏN YOXSUL ÖLKƏLƏRİNİN SİYAHISINDADIR



BMT üzv ölkələr üçün yeni üzvlük haqları cədvəlini təsdiq edib. Cədvələ əsasən, üzvlük haqlarının miqdarı artıb.

Yeni plana əsasən, ən çox üzvlük haqqı BMT-nin ümumi xərclərinin 22 faizi, ən aşağı həddi isə 0,01 faizi həcmində müəyyən edilib. Amerika Birləşmiş Ştatları 22 faizlik üzvlük haqqını ödəyəcək yeganə ölkə olacaq.

Siyahıda sonrakı yerləri 12,005 faizlə Çin Xalq Respublikası, 8,564 faizlə Yaponiya, 7 faizlə Almaniya və 4,427 faizlə Fransa tutur.

Rusiyanın ödəyəcəyi məbləğ BMT-nin ümumi xərclərinin 2,405 faizini təşkil edəcək. Qazaxıstan 0,187 faizlə siyahıda ilk onluqdadır.

Azərbaycan BMT büdcəsinin 0,049 faizi qədər üzvlük haqqı ödəyəcək.

Gürcüstan (0,008 faiz) və Ermənistan (0,007 faiz) siyahıda sonuncu yerləri tuturlar.

Beləliklə, Gürcüstan və Ermənistan BMT-nin ən yoxsul ölkələri siyahısında yer alıblar.

## GÜRCÜSTANDAN MEYVƏ İXRACI 4,5%, TƏRƏVƏZ İXRACI İSƏ 16,4% AZALIB



Gürcüstan Milli Statistika Xidmətinin göstəricilərinə əsasən, 2018-ci ilin 11 ayı ərzində meyvə və qozun ixracı 86,2 milyon ABŞ dolları təşkil edib. Bu keçən ilin analoji dövrü ilə müqayisədə 4,5% azdır. “East Fruit”in yazdığına görə, fındıq – 50,4 milyon dollar, fıstıq – 11,2 milyon dollar, şaftalı – 8,2 milyon dollar, mandarin – 5,2 milyon dollar, xurma – 1,8 milyon dollar, banan – 1,6 milyon dollar və alma – 1,1 milyon dollar təşkil edib.

2017-ci ilin yanvar ayından noyabr ayına qədər olan dövrdə Gürcüstandan 90,3 milyon dollarlıq meyvə ixrac edilib və bu, Gürcüstandan ixrac məhsullarının ümumi həcminin 3,69%-ni təşkil edir: fındıq – 74,2 milyon dollar, şaftalı – 4,3 milyon dollar, mandarin – 3,3 milyon dollar, xurma – 1,3 milyon dollar, alma – 1,1 milyon dollar və banan – 1.0 milyon dollar.

2018-ci ilin 11 ayının göstəricilərinə görə, Gürcüstanda tərəvəzin ixracından əldə edilən gəlir 7,7 milyon dolları təşkil edib. Bu isə ölkənin ixrac məhsullarının ümumi həcminin 0,42%-i deməkdir. Qeyd olunan göstərici ötən ilin analoji dövrü ilə müqayisədə 16,4% azdır.

Qrupda əsas mövqeyləri tutur: pomidor – 4,2 milyon dollar və kartof – 3,2 milyon dollar. 2017-ci ilin göstəricilərində isə yanvardan noyabra qədər Gürcüstandan 15,2 milyon dollarlıq tərəvəz ixrac olunub. Bu isə ölkədən ixrac olunan məhsulların ümumi həcminin 0,62%-dir. Aparıcı mövqeydə kartof – 5,2 milyon dollar və pomidor – 4,1 milyon dollar təşkil edib.

## GÜRCÜSTANDA QİÇS-DƏN 1515 NƏFƏR ÖLÜB



Ötən il Gürcüstanda QİÇS-ə 672 yeni yoluxma halı qeydə alınıb. “Report”un yerli bürosunun verdiyi xəbərə görə, bu barədə Gürcüstanın İnfeksiya patologiyası, QİÇS və Kliniki immunologiya üzrə Elmi-Praktik Mərkəzi məlumat yayıb. Bildirilib ki, illik müqayisədə yoluxma hallarının sayı 41 hal çoxdur.

2018-ci il dekabrın 31-nə olan məlumata əsasən, ölkədə, ümumilikdə, 7434 QİÇS-ə yoluxma halı qeydə alınıb. Xəstəliyə yoluxanların 5564 nəfərini kişi, 1870 nəfərini isə qadınlar təşkil edir. Xəstəlik daşıyıcılarının böyük əksəriyyətini 29-39 yaş qrupuna daxil olan insanlar təşkil edir. QİÇS 3969 xəstədə inkişaf edib, 1515 nəfər isə ölüb.

HİV infeksiyasına yoluxma hallarının 39,9%-i narkotik vasitələrdən istifadə, 46,4%-i isə heteroseksual əlaqə vasitəsilə yayılıb.

QİÇS-ə yoluxan şəxslərin böyük əksəriyyəti paytaxt Tbilisinin payına düşüb. Şəhərdə 2719 nəfər QİÇS daşıyıcısıdır. Onların da 87-si xarici ölkə vətəndaşıdır.

Azərbaycanlıların sıx yaşadığı Kvemo Kartli bölgəsində isə 385 nəfər QİÇS-ə yoluxub.

Gürcüstanda HİV infeksiyasına yoluxan uşaqların sayı 109 nəfər təşkil edir ki, onların 69-u oğlan, 40-ı isə qızdır. Onlardan 27-si ölüb. Qeyd edək ki, Gürcüstanda QİÇS-ə ilk yoluxma halı 1989-cu ildə qeydə alınıb.

## TBİLİSİ AZƏRBAYCAN DRAM TEATRINA YENİ BƏDİİ RƏHBƏR TƏYİN OLUNUB



Heydər Əliyev adına Tbilisi Dövlət Azərbaycan Peşəkar Dram Teatrının bədii rəhbər vəzifəsinə ilk dəfə olaraq azərbaycanlı təyin olunub.

Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi bu vəzifəyə teatrın gənc aktyor və rejissoru Turqay Vəlizadəni təyin edib.

T.Vəlizadə teatrın ilk azərbaycanlı bədii rəhbəri olub. Belə ki, bu vaxta qədər bu vəzifəni gürcü əsilli incəsənət xadimləri tutublar.

Qeyd edək ki, T.Vəlizadə Şota Rustaveli adına Tbilisi Dövlət Teatr və Kino Universitetinin rejissorluq ixtisası üzrə magistr dərəcəsi alıb.

Xatırladaq ki, teatrın keçmiş bədii rəhbəri Varlam Nikoladze ötən ilin oktyabr ayında vəzifəsindən sui istifdə etdiyinə görə aktyorların və teatr heyətinin etirazı ilə işdən çıxıb.

## TBİLİSİ-BATUMİ QATARLARINDA KİTABXANA FƏALİYYƏT GÖSTƏRƏCƏK



Yeni ildə Tbilisi-Batumi ikimərtəbəli sərnişin qatarlarında səyyar kitabxana fəaliyyətə başlayıb.

Sərnişinlər bu kitabxanalarda klassiklərin və müasir dövrün şair və yazıçılarının əsərlərini oxuya biləcəklər.

Gürcüstan Dəmiryollarının mətbuat xidmətinin rəhbəri Daçi Tsquriya deyib ki, məqsəd sərnişinlər üçün daha rahat, maraqlı səyahət şəraiti yaratmaqdır.

Gələcəkdə səyyar kitabxananın digər qatarlarda və uzaq məsafələr üçün nəzərdə tutulmuş başqa nəqliyyat vasitələrində də açılması nəzərdə tutulub.

## SİQARET BAHALAŞIB



Gürcüstanda siqaretin qiyməti artıb. Tütün məmulatlarının satıldığı köşklərdə müxtəlif markalı siqaretlərin qiyməti orta hesabla 50 tetri bahalaşıb.

Siqaretin bahalaşması ötən ilin sonunda ölkənin Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə əlaqədardır. Belə ki, yanvarın 1-dən etibarən idxal olunmuş filtrli siqaretlərə tətbiq olunan vergi artırılıb. Dəyişikliklərə əsasən, şirkətlər dövlətə siqaret qutusunun dəyərinin 10%-ni deyil, 30%-ni ödəməli olacaqlar.

Bundan başqa, yanvarın 1-dən etibarən filtrsiz siqaretlərə olan aksiz vergisi filtrli siqaretlərin aksiz vergisi ilə eyniləşdirilərək 20 siqaret üçün 1,7 lari təşkil edib.

Təsisçi:
“Gürcüstan Gənclərinə Yardım Və Maarifləndirmə Təşkilatı”

Redaktor:
Azər Musaoğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu
Qrafik dizayn:
Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.